**UOT 32**
**Güldanə BABAYEVA**
*AMEA Fəlsəfə İnstitutunun əməkdaşı, s.e.ü.f.d.*

# ERMƏNİ TƏCAVÜZÜ VƏ ONUN GEOSİYASİ MAHİYYƏTİ HAQQINDA*

Qafqazda erməni təcavüzünün mahiyyətini nəzərdən keçirmək üçün ilk növbədə Ermənistan-Azərbaycan-Dağlıq Qarabağ münaqişəsi haqqında danışılmalıdır. Belə bir münaqişənin mövcudluğu bütün iqtisadi və siyasi regional layihələrin reallaşmasına mənfi təsir edir.

Bütün münaqişələrin tarixi mahiyyəti onu sübut edir ki, ədalətsiz sülh heç bir halda münaqişələrin həll edilməsi üçün əsas ola bilməz. Ona görə də münaqişənin həlli mexanizmi işlənib hazırlanmalı, maraqlarımız siyasi və hüquqi müstəvidə öz həllini tapmalıdır. Bunun üçün dövlətimiz tarixi təcrübəmizə, mövcud iqtisadi, o cümlədən hərbi imkanlarımıza güvənməlidir. Eyni zamanda Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzunun , beynəlxalq hüquqi münasibətlərin intensivləşməsinin münaqişənin həllində böyük rol oynaması faktı diqqət mərkəzində olmalıdır.

Aydındır ki, Azərbaycanın ərazi bütövlüyünün bərpası problemi ölkəmizin təhlükəsizliyi ilə bağlı olan təxirəsalınmaz məsələdir. Münaqişənin həllində Azərbaycanın mövqeyi ulu öndər H.Əliyev tərəfindən hər zaman bildirilmişdir. Belə ki, Azərbaycam Respublikası Prezidentinin 6 dekabr 1994-cü il tarixində dövlət başçılarının Budapeştdə keçirilən iclasında demişdir: ”Təcavüzün ağır nəticələrinə baxmayaraq, biz Ermənistan tərəfinə ədalət və humanizm əsasında, BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında sülh təklif edirik. Biz Dağlıq Qarabağın erməni əhalisinin təhlükəsizliyinə təminat verməyə hazırıq. Biz milli azlıq təşkil edən ermənilərin hüquqlarının həyata keçməsi üçün Azərbaycan dövlətinin tərkibində Dağlıq Qarabağın statusunu müzakirə etməyə və Azərbaycanın Dağlıq Qarabağ regionu ilə Ermənistan Respublikası arasında nəqliyyat kommunikasiyalarının normal işləməsini təmin etməyə də hazırıq. Amma bizim üçün sarsılmaz olan normalar və prinsiplər vardır ki, bunlar da sərhədlərin pozulmazlığı, Azərbaycanın ərazi bütövlüyü, işğal edilmiş bütün ərazilərdən erməni silahlı birləşmələrinin çıxarılması, qaçqınların doğma ocaqlarına qaytarılmasıdır.” (1, s.9)

Heydər Əliyev Dağlıq Qarabağ münaqişəsi ilə bağlı 2 dekabr 1996-cı ildə ATƏT-in Lissabon zirvə görüşündə də respublikamızın rəsmi mövqeyini bildirmişdir.

Son illər Azərbaycanın hərbi potensialının sürətlə artması Ermənistanı narahat edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin silahlı qüvvələrin inkişafı ilə bağlı bəyanatı Ermənistanı narahat etməyə bilməz. İlham Əliyev qeyd edir ki, növbəti illərdə orduya ayrılan xərclər daha da artacaqdır. Mən bunu bir daha demək istəyirəm ki, biz bu sahədə prioritet diqqət göstəririk. Ancaq bizim qarşımızda böyük vəzifələr durur. Biz istənilən anda, istənilən yolla öz doğma torpaqlarımızı azad etməyə hazır olmalıyıq, hazırıq, ancaq özümüzü daha da gücləndirməliyik(2).

Qeyd edilməlidir ki, Azərbaycan Republikasının ərazi bütövlüyünün bərpa edilməsi üçün görülən tədbirlər, o cümlədən irimiqyaslı taktiki təlimlərin keçirilməsi döyüş hazırlığının gücləndirilməsində əsas şərtlərdən biridir. Təlimlərin gedişinin Azərbaycan Respublikasının Prezidenti Ali Baş Komandan İlham Əliyev tərəfindən izlənməsi onu deməyə əsas verir ki, Azərbaycanın ərazi bütövlüyünün bərpası problemi bütün xalqımızın və Prezidentimizin diqqət mərkəzindədir.

---

* Məqalə fəlsəfə ü.f.d.,dos.Həbib Hüseynov tərəfindən çapa məsləhət görülüb.

Gələcəkdə hərbi əməliyyatların başlanacağı hallarda respublikamızın manevr imkanlarının hərbi strateji baxımdan müəyyənləşdirilməsi mühüm əhəmiyyət kəsb edən amillər sırasındadır. Eyni zamanda əməliyyatlar başlanacağı təqdirdə region dövlətlərinin – Rusiya, İran, Türkiyə və Gürcüstan kimi dövlətlərin davranış taktikasını proqramlaşdırmaq, onların Azərbaycana təsir imkanlarını da öyrənmək vacibdir.

Azərbaycanın ərazi bütövlüyünün siyasi yolla həlli mümkün olmadığı hallarda hərbi gücün tətbiqi məsələsi ətrafında düşünmək lazımdır. Belə ki, hərbi əməliyyatların uğurla həyata keçirilməsi istiqamətində müəyyən tədbirlər, o cümlədən hərbi sistemdə quruculuq işləri, ön cəbhədə hərbi birləşmələrin say tərkibi, təchizatı, əsgər və zabitlərdə psixoloji durum, döyüşçülərin hərbi hazırlığı bir vəzifə olaraq diqqət mərkəzində olmalıdır. Eyni zamanda Ermənistanın iqtisadi və hərbi tərəfdaşları, onun xarici dövlətlərlə bağladığı iqtisadi və hərbi müqavilələr haqqında vaxtaşırı məlumatların alınması, hərbi əməliyyatların keçirilməsi imkanları bir daha diqqət mərkəzində olmalıdır.

Həm də nəzərə alınmalıdır ki, Ermənistan uzunmüddətli hərbi əməliyyatlar aparmaq imkanına malik deyildir. Ona görə düşmənlərin çox güman ki, şimal mövqelərdən irəliləmək üçün daha ciddi planları ola bilər və bu istiqamətdə strateji əhəmiyyətə malik olan neft-qaz kəmərlərini, Qərb istiqamətində nəqliyyat və dəmiryol xəttlərini atəş altında saxlamaq imkanlarına üstünlük verə bilər. Belə bir strateji imkanlara çatmaq üçün düşmən başqa döyüş istiqamətlərində yayındırıcı tədbirlər həyata keçirə bilər.

Rusiya ilə Gürcüstan arasında məlum münaqişə aktından sonrakı dövrlərdə Ermənistanın iqtisadi vəziyyətinin çətinləşməsi,istehlak mallarının qiymətlərinin bahalaşması, xaricdən ölkəyə daxil olan valyutanın azalması, milli valyutanın alıcılıq qabiliyyətinin minimuma enməsi faciyəvi xarakter almışdır. Belə bir vəziyyətdən yaxa qurtarmaq üçün, iqtisadiyyatının xaricdən asılılığını həll etmək üçün təcavüzkarlığından əl çəkmək istəməyən Ermənistan və onun cinayətkar liderləri Türkiyə ilə sərhədlərin açılması məsələsini əsas istiqamət kimi gündəmə gətirərək, belə bir reallıqdan bəhrələnmək istədilər. Ancaq, Türkiyədən təcavüzkara kömək göstərilmədi. Əksinə , Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin, Bakı-Tbilisi-Qars dəmiryolu xəttinin çəkilməsi Ermənistanı təcrid olunmuş vəziyyətə saldı. Bu da hazırkı vəziyyətdə danışıqların müvəffəqiyyətli getməsi üçün Azərbaycanın iqtisadi və psixoloji üstünlüklərini nümayiş etdirən amillər sırasındadır.

Müsahibəsində Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrov bildirmişdir ki, Ermənistanın dünya ilə ünsiyyətində çətinlikləri var. Erməni xalqının maraqları tələb edir ki, bu situasiya tezliklə öz həllini tapsın. Dağlıq Qarabağ münaqişəsi həll olunan kimi Türkiyə Ermənistana dünya ilə əlaqə qurmağa kömək edəcəkdir. Bu isə Azərbaycanla münaqişələrin tezliklə həllini tələb edir. Erməni tərəfi çalışmalıdır ki, bu maneələr aradan götürülsün. Yerevanın tezliklə Dağlıq Qarabağ münaqişəsinin həlli üçün istəyi ön plana gətirilməlidir. Bu təkcə Türkiyə ilə münaqişələrin, münasibətlərin normallaşmasının deyil, eyni zamanda bütün dünyaya çıxış əldə etmənin ən düzgün yoludur (3).

Qeyd edilməlidir ki, Azərbaycan həm geosiyası mövqeyinə görə, həm də neft-qaz ehtiyatlarına görə xarici dövlətlərlə tərəfdaşlıqda əlavə üstünlüklərə malikdir. Belə ki, Avropa Birliyinin etibarlı enerji mənbələrinə çıxışın əldə edilməsi Azərbaycanın Avropa Birliyinin enerji təminatçılarından biri kimi strateji rolunu artırır. Beləliklə, Avropa Birliyi üzvləri Azərbaycanın enerji tərəfdaşları olaraq öz əlaqələrini inkişaf etdirirlər. XXI əsrin əvvəllərində Brüsseldə imzalanmış "Azərbaycan Respublikası ilə Avropa Birliyi arasında enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair anlaşma memorandumu" Azərbaycanın Avropa məkanının enerji təhlükəsizliyindəki müstəsna rolunu təsdiq etmişdir (4).

Təkcə bu amilin Avropada Azərbaycanın maraqlarına uyğun qərarların qəbul olunmasında və Dağlıq Qarabağ münaqişəsinin həllində obyektiv mövqe tutulmasında böyük rolu vardır.

Məlumdur ki, Qafqazda Rusiyanın təsir imkanları genişdir. Belə ki, Azərbaycanın Rusiya ilə üst-üstə düşən maraqları səbəbindən münasibətlər möhkəmləndirilməli, beynəlxalq əlaqələrdə də Rusiya ilə bağlı məsələlərdə bu maraqlara söykənən münasibətlər nümayiş etdirilməlidir.

Karbohidrogen ehtiyatlarının Qərbə ixracı Qərb ölkələrinə təzyiqin əsas vasitələrindən biri hesab edilməlidir. Rusiya Azərbaycandan qaz alır. Elə bu fakt onu göstərir ki, Rusiya Avrasiya üçün geostrateji əhəmiyyətə malik olan bir ölkədir. Bu amil onu deməyə əsas verir ki, Dağlıq Qarabağ münaqişəsinin həllində Ermənistana təsir etmək imkanı olan Rusiya Azərbaycan-Ermənistan və Dağlıq Qarabağ münasibətlərinin həllində maraqlı olan amillər sırasındadır.

Məlumdur ki , BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı Azərbaycanın işğal olunmuş ərazilərdən qeyd -şərtsiz çıxarılması haqqında beynəlxalq hüququn norma və prinsiplərinə əsasən qəbul edilmiş qətnaməsinə hələ də əməl olunmamışdır.Eyni zamanda mövcud münaqişə ilə bağlı digər qətnamə və qərarların icrası məsələsi də diqqət mərkəzində olmalıdır.

Ümumiyyətlə, bütün bu siyasi fəaliyyətin əsas istiqamətləri onu qeyd etməyə əsas verir ki, artıq bütün dünya dövlətləri tərəfindən Ermənistanın hərbi birləşmələrinin işğal etdikləri ərazilərdən dərhal çıxarılması tələbləri müdafiə edilir və Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi istiqamətində uğurlu addımlar atılır.

Ermənistanın işğalçılıq siyasətindən çəkindirilməsi üsullarından biri-Azərbaycanın Gürcüstanda olan imkanlarından istifadə etməkdir. Məlum olduğu kimi, Ermənistan xarici ticarət sisteminin əsas hissəsini Gürcüstan vasitəsi ilə reallaşdırır. Azərbaycan Gürcüstan ilə strateji əməkdaşlıq edir və bu ölkədə kifayət qədər investisiya payına malikdir. Hazırda Azərbaycan Gürcüstanın enerji tələbatını ödəyir və ümumiyyətlə, bu ölkənin ictimai-siyasi sabitliyinin qorunmasında müəyyən rol oynayır. Bütün bunlar Gürcüstanda ictimai fikrin Azərbaycanın maraqlarına uyğun olaraq formalaşdığını deməyə imkan verir.

Azərbaycanda Türkiyə-Ermənistan münasibətləri də diqqət mərkəzində olmalıdır. Bütün vasitələrdən istifadə etməklə Türkiyə ilə Ermənistan arasındakı sərhədlərin açılmasına yol verilməməlidir. Bütün hallarda görünür ki, Türkiyəyə bu məsələ ilə bağlı təzyiqlər vardır. Türkiyə-Ermənistan əlaqələrinin bərpa olunmasında Dağlıq Qarabağ məsələsinin ilkin şərt kimi irəli sürülməsi onu göstərir ki, Dağlıq Qarabağ münaqişəsi həll edilmədən münasibətlərin həlli mümkün deyildir. Azərbaycan dövləti bu məsələləri ciddi izləyir və bütün bunlar siyasi və hüquqi motivlər əsasında tənzimlənir. Belə ki, Türkiyə Prezidenti və Baş nazirin Qarabağ problemi həll olunmadan Ermənistanla sərhəddin açılmayacağı barədə bəyanatlarından sonra bu sahədə narahatlığa son qoyuldu.

Qarabağ məsələsinin həlli istiqamətində gedən müzakirələrdə Ermənistan –İran münasibətlərinin mütəmadi olaraq təhlil edilməsi də diqqət mərkəzində olmalıdır. Belə ki, İran Cənubi Qafqazda mövcud olan fəal iştirakçılardan biridir. Qeyd edilməlidir ki, İran BMT və İslam Konfransı Təşkilatının qəbul etdiyi qətnamələrin yerinə yetirilməsinə və bu münaqişənin Azərbaycanın ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı əsasında həllinə tərəfdar olduğunu bildirmişdir. Beləliklə, İran beynəlxalq müstəvidə prinsipial məsələlərdə Azərbaycanın mövqeyini müdafiə edir. Qeyd edilməlidir ki, İran həm də Ermənistanla iqtisadi və siyasi əsaslarla münasibətlər qurmuşdur. Ermənistana bir çox istiqamətdə, o cümlədən enerji problemlərinin həllində onlara köməklik etməsi, onları iqtisadi blokadadan qismən də olsa çıxarması bizi məyus edir. İran bütün bunları iqtisadi və qonşuluq maraqları əsasında həyata keçirdiyini söyləsə də, bu İranın milli maraqları əsasında həyata keçirdiyini göstərir.

Beləliklə, Azərbaycanla bağlı münaqişədə İran –Ermənistan münasibətləri də diqqət mərkəzində olmalıdır.

Məlumdur ki, XXI əsrin əvvəllərindən Azərbaycanın regionda təsir imkanlarının inkişafı və Qərbin İrana olan təzyiqlərin artması cənub qonşumuzu Azərbaycana qarşı kəskin addımlar

atmaqdan çəkindirmişdir. Ona görə Dağlıq Qarabağda hərbi əməliyyatlar başlanacağı təqdirdə İranın Azərbaycana qarşı göstərəcəyi iqtisadi və siyasi təzyiqlərin artacağı diqqət mərkəzində idi. Hazırda siyasi və iqtisadi münasibətlərin tənzimlənməsi istiqamətində gedən tədbirlər öz müsbət nəticələrini vermişdir.

Dağlıq Qarabağda münaqişələrin hazırkı vəziyyəti bizi qane etmir. Bizim Gürcüstanla münasibətlərimizin inkişafı baxımından müəyyən məsələlər milli maraqlarımıza mənfi təsir edir. Qeyd etməliyik ki, strateji müttəfiqimiz olan Gürcüstan ərazisindəki separatçı Abxaziya və Cənubi Osetiya kimi problemlərlə məşğuldur. Ona görə Gürcüstan Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllində maraqlıdır.

Məlumdur ki, həm də Azərbaycanın Ermənistanla əlaqələrinin olmaması, sərhədlərin bu istiqamətdə bağlı olması, strateji neft-qaz kəmərlərinin, nəqliyyat xəttlərinin Gürcüstan ərazisindən keçməklə nəticələnməsi bu dövlətə iqtisadi və siyasi üstünlük vermişdir. Gürcüstanın eyni zamanda Qərb üçün geosiyası əhəmiyyəti məsələsi də diqqət mərkəzində olmalıdır. Dağlıq Qarabağ ətrafında hərbi əməliyyatların başlanması təqdirində Gürcüstanın davranışları da əvvəlcədən proqnozlaşdırılmalıdır. Bu səbəbdən Azərbaycan əvvəlcədən mövcud vəziyyəti qiymətləndirməli, Gürcüstana təsir imkanlarını bir daha götür-qoy etməlidir.

Beləliklə, Azərbaycan öz iqtisadi və siyasi mövqeyinə güvənərək hərəkət etməli, öz milli xüsusiyyətlərini, resurslarını, beynəlxalq nüfuzunu, ölkənin daxili ictimai-siyasi sabitliyini nəzərə almalı, Dağlıq Qarabağın Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə nail olmalıdır. Münaqişənin göstərdiyimiz şərtlər daxilində həll edilməməsi gələcəkdə yeni-yeni münaqişələrin yaranması üçün səbəb rolunu oynaya bilər.

Millət o vaxt təhlükəsiz olur ki, müharibə yolu ilə qanuni maraqlarını təmin etmək gücündə olduğu halda, müharibədən qaçmaqla öz maraqlarını qurban vermir (5, s.355).

Bütün yuxarıda qeyd etdiyimiz kimi faktlar və mühakimələr onu deməyə əsas verir ki, biz Ermənistan-Azərbaycan-Dağlıq Qarabağ münaqişəsinin həllinə nail olmalı və öz ərazi bütövlüyümüzü təmin etməliyik .

**Açar sözlər:** *geosiyasət, ərazi bütövlüyü, erməni təcavüzü, hərbi əməliyyatlar, beynəlxalq normalar, işğalçılıq siyasəti.*

### İstifadə olunmuş ədəbiyyat

1. Heydər Əliyev. "Biz Azərbaycan ərazisində ikinci bir erməni dövlətinin yaranmasına yol verə bilmərik". Bakı: "Əbilov, Zeynalov və oğulları", 2006.
2. "Biz istənilən anda, istənilən yolla öz doğma torpaqlarımızı azad etməyə hazırıq". "Yeni Azərbaycan" qəzeti, 22 yanvar 2009-cu il .
3. "İki-üç həll edilməmiş məsələ qalıb". "Azərbaycan" qəzeti, 8 oktyabr 2008-ci il .
4. "Davos İqtisadi Forumu işini davam etdirir". "Azərbaycan" qəzeti, 30 yanvar 2009-cu il
5. Гаджиев К.С. Введение в геополитику. М: "Логос", 1998.

**Гюльдана БАБАЕВА**

## АРМЯНСКАЯ АГРЕССИЯ И О ЕЕ ГЕОПОЛИТИЧЕСКОЙ СУЩНОСТИ

**Резюме**

Азербайджан должен обеспечить свою территориальную целостность. Если это проблема не будет решена политическим путем, то следует остановиться на вопросе применения вооруженных сил. То есть для успешного осуществления военных операций необходимо провести ряд мероприятий, в том числе строительные работы в военной системе, систематизацию военных соединений на переднем фронте, их численность, вопросы материальной и технической оснащенности, психологическое состояние солдат и офицеров. Кроме того, в центре внимания должна быть военная подготовка солдат.

В то же время в центре внимания должны быть сведения о партнерах Армении в экономической и военной областя о договорах, закмоченных ею с иностранными государствами в этих же областях, возможностях проводения военных операции.

**Ключевые слова:** *геополитика, территориальная целостность, армянская агрессия, военные операции, международные нормы, аккупационная политика.*

**Guldana BABAYEVA**

## ARMENIAN AGGRESSION AND ITS GEOPOLITICAL ESSENCE

**Summary**

Azerbaijan has to provide its territorial integrity.If this problem is not solved in political way, it must dwell on the question of using the armed forces. That's for successful implementation of the military operations it's necessary to undertake a series of arrangements including organizational works in the military system, systematization the military formations on front line, their number, the issue of their material and technical eguipping, psychological state of soldiers and officers. In addition, the military training of soldiers is to be in the focus of attention. At the same time there shold be information on the partners of Armenia in the economic and military fields, on negotiations concluded with foreign states by it in those fields, possibilities of conducticting military operations.

**Keywords:** *geopolotices, territorial integrity, Armenian aggression, military operations, international norms, occupation politics.*